

...Şəriət, təriqət yoldur gedənə,
Mərifət, həqiqət ondan içəri...

Yunus İmrə

# İdeya ilə idealın qovşağında...

## Timuçin Əfəndiyev-65

Mədəniyyət məkanının da öz yolları olduğu üçün öz qaydaları, öz mütləq şərtləri, öz tarixi, öz poeziyası və öz elmi var. Yer üzündəki bütün mövcud yolların inikası olan mədəniyyət yollarının bir çox səciyyələri onlarla üst-üstə düşür. Yalnız bir fərq mövcuddur- mədəniyyət yollarında təsadüfi yolçular olmur!

Timuçin Əfəndiyevin Mədəniyyət Yolunun yolçusu olması şəksizdir. Və tariximizin görünməyən, sezilməyən çağlarından başlayıb sonsuzluğa qədər uzanan bu yolu Timuçin müəllim tək yerimir... Elə isə, gəlin bu şanlı yolun mürəkkəb məqamlarını görümlü edən "yol ağacları"nı açıqlamağa birlikdə cəhd edək...Mədəniyyət yoluna sovet dönəmində ayaq basan gənc Timuçin çoxlarımız kimi ideoloji "körpülər" dən keçməyə bilməzdi.

Sovet ideologiyasının sərt çərçivələri içində dünya düşüncəsinin yüksək səviyyəli qənaətlərini özü üçün təməl bilən Timuçin Əfəndiyev mədəniyyət və incəsənət sahəsinin parametrlərini, ölçülərini, daxili qanun və qanunauyğunluqlarını, məqsəd və vəzifələrini elmi şəkildə öyrənərək öz elmi modelini yaratmağa müyəssər oldu.

İdeologiyanın basqısı zəif adamları yollarından sapındıra bilər. Timuçin Əfəndiyev isə mədəniyyət və incəsənət haqqında mövcud olan ideyaları ideologiyanın bəsit tələblərindən ayıra bilmiş, onları konseptuallaşdırmış və yalnız bunların əsasında öz elmi fəaliyyətini, daha sonra isə praktiki işlərini qurmuş, mədəniyyət və incəsənət sahəsində ali təhsilin güclü təşkilatçısı kimi şöhrətlənmişdir. Sözdə demək asan gəlir, amma, bütün bu işləri görməkdən ötrü Timuçin Əfəndiyev nə qədər zəhmətə qatlaşıb, nə qədər güc sərf edib - bunu bir özü bilir, bir də ulu Mədəniyyət Yolunu onunla çiyin-çiyinə addımlayan "yoldaş"ları, əqidədaşları, görkəmli sənət adamları...

**Timuçin Əfəndiyevin həyat və yaradıcılığı haqqında düşünəndə gözümüzün önündə ilkin olaraq uzun bir Yol obrazı yaranır. İnsanların yaranışından qədəm basdığı ulu yollardan biri onu "Mədəniyyət" adlanan nəhəng bir məkana gətirib çıxartdı.**

İllər uzunu seçdiyi yolla əzmlə yeriyən Timuçin Əfəndiyev az keçmədi ki, mövcud olan elmi konsepsiyaları sintez halına gətirərək öz yolunun başlıca yönünü, istiqamətini müəyyənləşdirdi.

Əsrlər boyu zatən ziyalı olan hər kəs bu işi görüb, görür və görəcəkdir. Heç də asan olmayan bu yolun, bu seçimin əsas meyarı isə hər zaman İdeal olub. Böyük rus alimi, türkoloq L.N.Qumilyonun təbirincə "İdeal-uzaq proqnozdur, etnosun seçilmiş nümayəndələri onu yaxınlaşdırmağı, həyata keçirməyi özlərinə borc bilib, uğrunda mübarizə-

yə girişirlər". Timuçin Əfəndiyevin erkən yaşlarından müəyyənləşdirdiyi İdeal- milli mədəniyyət və incəsənətin milli köklərlə üzvi bağlılıqda dünya standartlarına uyğun istiqamətdə inkişafıdır. Aydın məsələdir ki, bu İdealın qayəsi əbədi hərəkət olduğuna görə ona çatmaq, yetmək mümkün deyil, amma hərəkət, inkişaf naminə gündəlik işlər görmək insandan işgüzarlıq, iradə, sağlam düşüncə və bir də ki, doğma mədəniyyət və incəsənətə sonsuz bağlılıq və sevgi tələb edir.

**İllər boyu Timuçin Əfəndiyevlə mədəniyyət yolunu gedənlərə, sıx təmasda olanlara onun sadalanan keyfiyyətlərə sahib olması bəllidir və hamıya o da aydındır ki, bu idealın formalaşmasında böyük sənətkar, Azərbaycan milli sənət düşüncəsinin qoruyucusu, milli mədəniyyət və incəsənətimizin təəssübkeşi İlyas Əfəndiyevin rolu və əhəmiyyəti misilsizdir...**

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti təyininə görə sintetik xarakterli ali təhsil ocağıdır. Bədii, yaradıcı və elmi düşüncələrin üzvi sintezi bu təhsil ocağının gözə çarpan özəlliyini müəyyənləşdirir.

Universitetin rəhbərliyini və bütün məsuliyyətini üzərinə götürmüş Timuçin Əfəndiyev elə ilk gündən öz fəaliyyətinin konseptual proqramını hamıya bəyan etdi və onun həyata keçirilməsi uğrunda yorulmadan çalışmağa başladı.

Qısaca olaraq Timuçin Əfəndiyevin uzun müddətli inkişaf proqramını belə göstərmək olar. Bəllidir ki, iki düşüncə növü mövcuddur: yaradıcı və reproduktiv. Yaradıcı düşüncə subyektiv yeni dəyərlər yaratmağa meyllidir və daha çox sənətkarlara xasdır.

Reproduktiv düşüncə mövcud olan dəyərləri sistemli şəkildə təhrifsiz təkrarlamağa yönəlir və daha çox müəllimlik peşəsinə uyğundur. Universitetdə olan nəzəri və yaradıcı kafedralarda müvafiq olaraq nəzəriyyəçi alimlər və fəal bədii yaradıcılıqla məşğul olan sənətkarlar təsdiqlənmiş proqramlar üzrə dərs deyir.

Əvvəllər tədris prosesinin bu iki qolu- elmi-nəzəri və bədii, yaradıcı istiqamətləri paralel gedirdi və buna görə də kəsişmə nöqtələri demək olar ki, yox idi. Universitetdə çalışdığı ilk illərdən bu uyğunsuzluğu aşkarlayan Timuçin Əfəndiyev onun həlli yolları üzərində ciddi düşünmüşdü. Səlahiyyət sahibi olduğu gündən isə Timuçin müəllim zahiri çox sadə, amma gerçəkləşdirilməsi uzun illər tələb edən yeni modelini açıqladı.

Bu modelin səciyyələri aydın və konkret idi:

- nəzəriyyəçilər tədris proqramlarını bədii yaradıcı məqsəd və vəzifələrə uyğunlaşdırmalıdırlar;
-yaradıcı kafedraların müəllimləri tədris prosesini elmi-nəzəri əsaslarla zənginləşdirməlidirlər;
- universitetin inzibati strukturunun fəaliyyəti göstərilən vəzifələrin təmin olmasına yönəlməlidir.

Etiraf etmək lazımdır ki, üçüncü səciyyə tez bir zamanda praktiki təzahürünü tapdığı halda, birinci və ikinci bəndlərin gerçəkləşdirilməsi xeyli zaman və zəhmət tələb etdi. Bunun səbəbi əski təcrübədən qaynaqlandığından, Timuçin Əfəndiyev demək olar ki, sıfırdan başlamalı oldu ki, universitetin istedadlı məzunları professor- müəllim heyətinin aparıcı qüvvəsinə çevrilərək Timuçin Əfəndiyevin konsepsiyası üzərində qurulmuş tədris prosesinin əsas istiqamətlərini müəyyənləşdirməyə qadir olsunlar.

İllər lazım oldu ki, yaradıcı kafedralarda dərs deməyə dəvət olunmuş görkəmli sənətkarlar yaradıcı peşələrinin nəzəri əsaslarını da tələbələrə öyrətməyə başlasınlar.

Timuçin Əfəndiyevin illərcə tərtib etdiyi nəzəri modelin konkret təzahürünü bu gün Universitetin Elmi Şurasının tərkibində görmək olar; çiyin-çiyinə çalışan nəzəriyyəçilər və praktiklər, sanballı alimlər və görkəmli sənətkarlar, təcrübəli pedaqoqlar və gənc müəllimlər rektor Timuçin Əfəndiyevin rəhbərliyi ilə başlıca məqsəd uğrunda çalışırlar- elm və sənət sintezi, novatorluq və keyfiyyətli tədris prosesinin dinamikası bugünkü ADMİU-nun "siması"nı müəyyənləşdirir.

Eyni prinsiplər əsasında fəaliyyət göstərən Tələbə Elmi Cəmiyyəti, magistratura və aspirantura şöbələri, xarici tələbələrlə iş şöbəsi, tədris teatrı və s. milli mədəniyyət və incəsənətimizin elmi və bədii yaradıcı potensialının ən dolğun və tam şəkildə realizəsini təyin edərək prosesin qırılmazlığına zəmanət verir. Timuçin Əfəndiyevin nəzəri modeli öz praktiki realizəsini tapdı. Nəticələri də göz qabağındadır!...

Rektor vəzifəsinə təyin ediləndən sonra Timuçin Əfəndiyev hər şeydən öncə yeni statusunun səviyyəsini və məsuliyyətinin masştabını dərk etdi. Özü üçün müəyyənləşdirdi ki, mədəniyyət və incəsənət qarşısında borc bildiyi işləri görməlidir. Bu gün onun gördüyü işlərin praktiki nəticəsini asanlıqla göstərmək olar.

Belə ki, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində rektor vəzifəsində çalışan Timuçin Əfəndiyevlə vaxtilə yalnız 9 ixtisasda kadr yetişdirən, dövlət ali məktəbləri arasında nüfuzu o qədər də yüksək olmayan İncəsənət İnstitutunu mədəniyyət və incəsənət üçün 30(!) ixtisasdan çox kadr hazırlayan, xarici ölkələrdən öyrəncilər qəbul edən, beynəlxalq aləmdə diplomu tanınan, özünün aspiranturası, doktoranturası, müdafiə şurası, muzeyi, nəşriyyatı, elmi-nəzəri jurnalı, müstəqil "tədris teatrı", müasir tədris korpusları və s. olan yüksək statuslu Universitet səviyyəsinə yüksəldib.

Mədəniyyət və incəsənətimizin aktual tələb və ehtiyaclarını ödəmək məqsədilə Azərbaycanda bu vaxta qədər olmayan "Balet sənəti", "Kino rejissorluğu", "Televiziya rejissorluğu", "Kinooperatorluq", "Xalçaçılıq", "Modaçı rəssam", "Reklam işləri üzrə rəssam", "Teatr və kino rəssamı", "Estrada rejissorluğu" və bir çox başqa ixtisasları tədris edən fakültələri açıb.

Bu gün ömrünün 65 yaşlı zirvəsində tələbələrlə canlı ünsiyyətdən yorulmayan Timuçin Əfəndiyev gələcək teatrşünaslara dərs deyir, öyrədir və adətinə görə öyrənir.

Bəlkə bundadır Timuçin Əfəndiyev düşüncəsinin mütəhərrik olmasının sirri?!

İllərcə Timuçin Əfəndiyevlə çiyin-çiyinə çalışdığımdan onun necə tələbkar rəhbər olmasına yaxşı bələdəm. Bunu söyləməklə nə isə fövqəladə bir rəy söyləmiş deyiləm, bu aksiomdur: nəhəng bir təsisatın saat kimi dəqiq işləməsini istəyirsənsə, özünün istirahət günləri və məzuniyyəti olmamalıdır.

Bir də ki, Timuçin Əfəndiyevin iradəsi, işgüzarlığı və işin bütün səciyyələrini- irili-xırdalı tərəflərinə ayrılmadan, önəmli və önəmsiz qradasiyasını qəbul etmədən vurma cədvəli kimi əzbər bilməsi keyfiyyətləri onun məhz müasir, çevik düşüncəli ali məktəb rəhbəri kimi yetkinləşməsinə zəmin yaratdı.

Timuçin Əfəndiyevin tələbkarlıq prinsiplərini, üsul və üslublarını öyrənməyə başlayanda aşkarladığım bunlar oldu: tələbkarlığı özündən başlamaq, dəqiq tapşırıq vermək və dəqiq icrasını təmin etmək, etibar et, amma vaxtında yoxla, töhmət və cəza görülən qüsurlu işə adekvat olmalı, tələbkarlıq güzəşti istisna etmir və ən başlıcası- tələbkarlıq tələbkarlıq naminə deyil, tələbkarlıq işin xeyrinədir!

Timuçin Əfəndiyevin şəxsiyyəti haqqında düşünəndə birinci ağla gələn tərif "enerji"olur. Bu adamın yaşayıb-yaratmaq şövqü, hər şeyə səngimək bilməyən marağı, bu günün nailiyyətlərinə qane olmayıb sabaha-daha uzaq gələcəyə yönəlmiş yeni planlar qurmaq həvəsi, həyatın amansız zərbələrinə dözümü, insana müsbət təsir göstərən nikbinliyi keçdiyi uzun yolun mükafatları kimi dəyərləndirilə bilər.

Halbuki, qədirbilən həmkarları da Timuçin Əfəndiyevi mükafatlandırmağı özlərinə borc və şərəf bilərək onun qiymətini zamanında vermişdir. Əməkdar incəsənət xadimi, "Akademik Yusif Məmmədəliyev adına mükafat", "Humay" mükafatı, "Qızıl Dərviş" mükafatı, Azərbaycan Teatr Xadimləri İttifaqının "Qızıl medalı"ı, xarici səfərləri zamanı qarşılıqlı mədəni münasibətlər zəminində gördüyü möhtəşəm işlər üçün aldığı mötəbər mükafatlar, saysız-hesabsız diplom və fəxri fərmanlar Timuçin Əfəndiyevin yol ağaclarını bəzəməkdədir.

**Yunis İmrənin təbirincə, Timuçin Əfəndiyevin bu yolda əldə etdiyi əsl dəyərlər, əsl mükafat və şərəfləndirmələr isə "ondan içəri"də - milli mədəniyyət və incəsənətimizin qutlu tərkibindədir. Başqa bir ozanın sözlərini Timuçin Əfəndiyevə şamil etsək, o, "uzun incə bir yoldadır"- mədəniyyət yolunda, əvvəli və sonu olmayan yolun yolçusu isə, atalar demişkən, yolda gərək...**

**65 yaşlı zirvənizdən Sizə görünən yolunuz açıq olsun, Timuçin müəllim!**

**Sizinlə bu yolda yoldaşlıq edənlərin adından**

● **Məryəm ƏLİZADƏ,**
***sənətşünaslıq doktoru,***
***professor***